Avropa İttifaqı tərəfindən birgə maliyyələşdirilir

AVROPA İTTİFAQI

COUNCIL OF EUROPE

CONSEIL DE L'EUROPE

Avropa Şurası tərəfindən birgə maliyyələşdirilir və icra edilir

# Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq Proqramı

## Layihənın adı: "Azərbaycanda iqtisadi cinayətlərin qarşısının alınması və onunla mübarizə"

Layihə iqtisadi cinayətlərə qarşı mübarizə sahəsində Avropa Şurasının və beynəlxalq standartların təşviqinə, eləcə də monitorinq institutlarının tövsiyələrinə cavab verən beynəlxalq standartlara uyğun olaraq korrupsiya, çirkli pulların yuyulması və terrorçuluğun maliyyələşdirilməsinin qarşısının alınması və onunla mübarizə tədbirlərinin görülməsi, həmçinin aktivlərin bərpası istiqamətində Azərbaycanda yerli tərəfdaşların bilik və bacarıqlarının artırılmasına çalışacaqdır.

Layihə Avropa İttifaqı və Avropa Şurasının "Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq" birgə Proqramının üçüncü mərhələsi çərçivəsində həyata keçirilir. Layihə iqtisadi cinayətkarlığa qarşı mübarizə sahəsində Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq Proqramının əvvəlki mərhələlərinin (I mərhələ 2015-2018 və II mərhələ 2019-2023) nəticələrinin davamı olaraq həyata keçirilir.

### Layihənin məqsədi nədir?

- Azərbaycanda korrupsiya, çirlik pulların yuyulması və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə tədbirlərinin effektiv tətbiqi və cinayət yolu ilə əldə edilmiş gəlirlərin geri qaytarılması sahəsində yerli qurumların bilik və bacarıqlarını artırmaq.

### Layihədən kim faydalanır?

- Ədliyyə Nazirliyi və Ədliyyə Akademiyası
- Daxili İşlər Nazirliyi
- Korrupsiyaya qarşı mübarizə üzrə Komissiya
- Baş Prokurorluq
- Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi
- Maliyyə Monitorinqi Xidməti
- Milli Məclis, Hüquq Siyasəti və Dövlət Quruculuğu Komitəsi
- Mərkəzi Bank
- Hakimlər
- Maliyyə və qeyri-maliyyə institutları
- Vətəndaş cəmiyyəti
- İctimaiyyət.

### Layihə necə fəaliyyət göstərir?

- Siyasət və qanunvericiliyin təkmilləşdirilməsi, bilik və bacarıqların artırılması və maarifləndirmə tədbirlərinin yerli mühitə uyğunlaşdırılaraq həyata keçirilməsi vasitəsilə.

### Biz nəyə nail olmaq istəyirik?

- Korrupsiyanın effektiv şəkildə qarşısının alınması üçün təkmilləşdirilmiş mexanizmlər və bacarıqlar;
- Çirkli pulların yuyulması, terrorçuluğun maliyyələşdirilməsi ilə mübarizə və aktivlərin bərpası sahəsində gücləndirilmiş tədbirlər.

### Layihənin büdcəsi nə qədərdir?

- Layihənin ümumi büdcəsi 702,500 avro təşkil edir.

### Layihənin müddəti nə qədərdir?

- Layihə 1 mart 2023-cü il tarixindən 28 fevral 2026-cı il tarixinə kimi davam edəcək.

- Proqramın ümumi büdcəsi 19,3 milyon avro təşkil edir (80%-i Avropa İttifaqı, 20%-i Avropa Şurası tərəfindən maliyyələşdirilir).

## Əlavə məlumatı necə əldə etmək olar?

- Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq Proqramının veb səhifəsi: http://partnership-governance-eu.coe.int/
  E-poçt ünvanı: dpc_pgg@coe.int
- Avropa Şurasının Bakıdakı Ofisinin veb səhifəsi: https://www.coe.int/baku/
  E-poçt ünvanı: fieldbaku@coe.int

*"Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq" (PGG) Şərq Tərəfdaşlığı regionunda yaxşı idarəçiliyin gücləndirilməsi üçün Avropa İttifaqı və Avropa Şurasının birgə təşəbbüsüdür.*

*PGG Prorqamı insan hüquqları, qanunun aliliyi və demokratiya sahələrində Şərq Tərəfdaşlığı ölkələrinin qanunvericilik və təcrübələrini Avropa standartlarına uyğunlaşdırmaq üçün onların ehtiyaclarına müvafiq dəstək göstərir. Proqram, xüsusilə Şərq Tərəfdaşlığı ölkələrinin ədalət mühakiməsini gücləndirmək, iqtisadi cinayətlərə qarşı mübarizə aparmaq, bərabərlik və ayrı-seçkiliyə yol verməmək, qadınların ədalət mühakiməsinə çıxış imkanlarını artırmaq və qadınlara qarşı zorakılıqla mübarizə aparmaq üçün həyata keçirilən daxili islahatları dəstəkləyir.*